*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə: 53-58* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.53*

# Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərində soyqırım hadisələrinin real təsviri

**Samirə Kərimova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
akademiya-elm@rambler.ru

**Annotasiya:** "Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərində soyqırım hadisələrinin real təsviri" başlıqlı məqalə vasitəsilə biz XX əsrin əvvəllərində ermənilərin türk-müsəlman əhaliyə qarşı münaqişə, soyqırım törətməsini real hadisələrə söykənən hekayələr, epizodlar vasitəsilə tanış oluruq.
Məqalə vasitəsilə biz 1905-1906-cı illərdə türk-müsəlman əhaliyə qarşı soyqırımlar törədən erməni millətinin əsl xislətini, hadisələrin əsasən Azərbaycanın hansı bölgələrində cərəyan etməsi və Mir Möhsün Nəvvabın vətənpərvər ziyalı kimi hadisələrə yanaşma tərzinin, mövqeyinin şahidi oluruq.
Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri maarifləndirmə xarakteri daşımaqla yanaşı milli, dini ayrıseçkiliyə etiraz, həm də milli təəssübkeş ziyalı kimi gələcək nəsilləri erməni şovinizminə və onlara himayədarlıq edən Çar imperiyasının hiyləgər xarakterinə qarşı ayıq-sayıq olmağa çağırışın nümunəsidir.
**Açar sözlər:** soyqırım, türk-müsəlman, epizod, milli münaqişə, imperiya, tarixi hadisə

**Məqalə tarixçəsi:** göndərilib – 04.11.2025; qəbul edilib – 05.12.2025

# The realistic description of genocide events in the work "The armenian-muslim conflict of 1905-1906" by Mir Mohsun Navvab

**Samira Kerimova**

**Abstract:** We obtain information about the conflict and genocide of armenians against the turkish-muslim population in the early 20th century through stories and episodes based on real events in the article "The realistic description of genocide events in the work "The armenian-muslim Conflict of 1905-1906" by Mir Mohsun Navvab"'. In this article we witness the real character of the armenian nation, which committed genocide against the turkish-muslim population in 1905-1906, the regions in Azerbaijan where the incidents occurred most frequently, and Mir Mohsun Navvab's approach and position to events as a patriotic intellectual.
The work "The armenian-muslim Conflict of 1905-1906" by Mir Mohsun Navvab is educational in nature, protests the national and religious discrimination and as a nationalist intellectual it is an example of an appeal to future generations to be vigilant against armenian chauvinism and the cunning character of the Tsarist Empire that protected them.
**Keywords:** genocide, turkish-muslim, episode, national conflict, empire, historical event

**Article history:** received – 04.11.2025; accepted – 05.12.2025

## Giriş / *Introduction*

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının bir çox nümayəndələri öz bədii əsərləri vasitəsilə Qarabağ və digər bölgələrdə türk-müsəlman əhaliyə qarşı baş vermiş qırğınlar barədə ətraflı məlumat vermişlər. Dövrün hadisələrini həm canlı şahidi olaraq, həm də real faktlar əsasında bədii əsərlər meydana gətirən ədiblərimiz vardır. Onlardan biri də Mir Möhsün Nəvvabdır. Mir Möhsün Nəvvabın ədəbi-mədəni fəaliyyətində soyqırıma həsr etdiyi əsər və mövzular xüsusi yer tutur.

Görkəmli ədəbiyyatşünas Mir Möhsün Nəvvab da yaşadığı dövrdə baş vermiş hadisələrdən kənar qalmamaqla yanaşı, XX əsrin əvvəllərində rus imperiyasının himayədarlığı ilə erməni millətçilərinin türk-müsəlman əhalisinin üzərinə qaldırılması nəticəsində baş vermiş qırğınları, soyqırım hadisələrini real hadisələr əsasında əks etdirən **"1905-1906-cı illərdə erməni-müsəlman davası"** adlı əsərini yazmışdır. M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri XIX əsrin sonu XX əsrin əvvəllərində milli düşüncə və tariximizin analiz edilməsi aspektindən çox sanballı əsərdir.

Mir Möhsün Hacı Seyid Əhməd Ağamirzadə Qarabaği oğlu Nəvvab əsərin girişində ermənilərlə müsəlmanlar arasında baş vermiş qırğın və iğtişaşlar haqqında "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı nəsr əsərini hicri təqvimlə 1323-cü, miladi təqvimlə 1905-ci ildə qələmə aldığını qeyd edir. Əsəri 1993-cü ildə tərtib edən və əski əlifbadan çevirən isə filologiya elmləri doktoru, professor Kamandar Şərifli və Arif Ramazanzadədir.

Nəvvab əsərin giriş hissəsində Qarabağın daha öncəki tarixinə müəyyən ekskurs edərək, Azərbaycanda ayrı-ayrı xanlıqlar yaranan zaman miladi təqvimlə 1756-cı ildə Pənah xanın əmri ilə Pənahabad (Şuşa) qalasının tikilməsi, eyniadlı qalanın daha da genişləndirilərək şəhər olması, Pənah xanın oğlu İbrahimxəlil xanın dövründə Qarabağ xanlığının daha da qüvvətlənməsi, İran padşahı Ağa Məhəmməd şah Qacarın Qarabağa hücum etməsi, Gəncədən rus sərdarının Qarabağa İbrahim Xəlil xana kömək məqsədilə gəlib hiylə işlədərək Şuşa qalasını ələ keçirməsi, daha sonra rus əsgərlərinin erməni bələdçilər vasitəsilə İbrahim Xəlil xanın məskunlaşdığı əraziyə gəlib onları, əyanları və nökərlərini güllələbaran etmələri, baş verən hadisələr zamanı Mir Möhsün Nəvvabın ana babası Əmiraslan bəyin də iştirakı və Gövhər ağanı qaçıraraq möhkəm və təhlükəsi bir yerdə gizlətməyi barədə məlumat verilir. Baş verən tarixi hadisələr zəminində XX əsrin əvvəllərində Qarabağda münaqişə və qarşıdurmaların başlaması, sonradan isə kütləvi qırğınların törədilməsi prosesi başlamışdı.

## Əsas mətn / *Main Part*

Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri vasitəsilə öyrənirik ki, ermənilər dağınıq və plansız şəkildə deyil, xüsusi qımdatxanalar (mərkəzlər) yaradaraq təşkilatlanıb hərəkət edirdilər. Həmin qımdatxanalara erməni ziyalılar, sənətkarlar və digər nümayəndələr cəlb edilib türk-müsəlman əhaliyə qarşı təxribat, təbliğat, sui-qəsd, varlı ermənilərə məktubla müraciət edib pul toplayaraq hərbi sursat alınması və s. işlərlə məşğul olurdular. Qımdatxanalar məqsədlərini elə dəqiq planlı şəkildə təşkil etmişdilər ki, hətta varlı ermənilər həmin mərkəzə pul verməkdən yayındıqları halda növbəti dəfə elannamə yazılırdı, üçüncü dəfə isə onları hədələyirdilər. Bu dəfə də tələblərinə əməl edilmədikdə ermənilər özləri cani təyin edib həmin varlı erməniləri qətlə yetirirdilər. Qımdatlara və erməni millətçi dəstələrinə xeyir-dua verən isə həmin bölgələrdə yerləşən kilsələr və kilsə xadimləri idi. Kilsənin toxunulmaz Allah məbədi olduğunu əsas tutaraq, 1905-1906-cı illərdə türk-müsəlman əhaliyə qarşı qırğın və soyqırım hadisələri törətmək məqsədilə toplanan hərbi sursat həmin kilsələrdə gizlədilirdi. Hətta, 1906-cı ildə Şuşada davamlı baş verən qırğınlardan, hadisələrdən cana doymuş ermənilərin özləri belə rus generalına xəbər verərək həmin kilsələrdə yerləşən gizli anbarların ləğv edilməsini istəmişdilər.

Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərini yazmaqda əsas məqsədinin bu illərdə ermənilərlə müsəl-

manlar arasında baş vermiş iğtişaş və qırğınları bəyan etmək idi. O, əsərin girişində rus dövlətinin Qafqaza hakim olandan sonra əvvəlcə hər yerdə sakitlik yarandığını, heç bir millətin bir-biri ilə işi olmadığını və hər millətin öz məbədlərində ibadət etdiklərini, xüsusilə də ermənilərlə müsəlmanlar arasında dostluq münasibətləri olduğunun, bir-biriləri ilə alış-veriş etdiklərini də diqqətə çatdırırdı. Lakin müəllif bu mehribançılığın uzun çəkmədiyini, sonra erməni tayfasının təbiətinin dəyişdiyini, əsl xislətlərinin zamanla üzə çıxdığını, zahirən özlərini dost kimi göstərsələr də, daxilən ədavətli millət olmaqlarını yazırdı. Hətta, əsərlə yaxından tanış olduğumuz zaman, biz onların fürsət düşdükcə öz məqsədləri naminə rusların özlərinə belə xəyanət etdiklərinin şahidi oluruq. Buna 1903-cü ildə rus-yapon müharibəsi zamanı rus dövlətinin başının müharibəyə qarışması nəticəsində Qarabağda yaşayan bir ermənininin dəyəri bir milyon manat olan bir gəmini yapon dövlətinə peşkəş etməsi faktını da misal göstərmək olar. Müəllif yazır ki, *"Bu zaman rus dövlətinin başı müharibəyə qarışdığına görə, ermənilərdən çağırılmış əsgərlər dövlətə xəyanət edərək dəstə-dəstə silahları ilə bərabər, Osmanlı və İran dövlətlərinə qaçdılar. Qərəz, öz məzhəblərinin qaydası ilə andlarına yalan çıxıb müxtəlif xəyanətlər edirdilər"* [4, s.13].

"1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri ilə yaxından tanış olarkən biz erməni-müsəlman münaqişəsi və iğtişaşının əsasən 1903-cü ildən etibarən Qarabağda, Şuşada və Şuşaətrafı kəndlərdən başladığının, 1904-cü ildən etibarən Bakı şəhərində, 1905-06-cı illərdə isə kütləvi və geniş şəkildə ayrı-ayrı bölgə və şəhərlərimizdə İrəvan, Naxçıvan, Təbriz, Xorasan, Tiflis, Gəncə, Əsgəran şəhərlərində və çoxsaylı kəndlərdə cərəyan etdiyinin şahidi oluruq. Erməni millətçilərinin türk-müsəlman əhaliyə qarşı törətdikləri münaqişə, iğtişaş, soyqırım hadisələrini əsərdə əhvalatlar və hekayələr şəklində diqqətə çatdırılır. Türk-müsəlman əhalinin ermənilərə qarşı müqaviməti real faktlarla təsvir edilir.

M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri vasitəsilə biz hətta 1903-1904-cü illərdə Şuşada və Qarabağın bir çox yerlərində ermənilərin Azərbaycan türklərinə qarşı törətdikləri cinayətləri ayrı-ayrı epizodlar vasitəsilə öyrənirik. Epizodları oxuyarkən məlum olur ki, o vaxt da mərkəzdə bu iki millətə yəni erməni və azərbaycanlılara qarşı münasibət fərqli olmuşdur. Məsələn çarın əmri ilə azərbaycanlılara silah gəzdirmək qəti qadağan olunduğu halda, silahlı erməni dəstələri silahsız azərbaycan türklərinə çox asanlıqla hücub edib, onları qətlə yetirə bilirdilər. Onlar fürsət düşən kimi istər azərbaycan, istərsə də osmanlı türklərinə nəinki fiziki həm də maddi, mənəvi zərbələr endirmişlər. Filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Məmmədova-Kekeç qeyd edir ki, *"Tarixi qaynaqlara baxdığımız zaman Çar Rusiyasının ermənilərin bütün bu qaniçən əməllərinə qarşı tolerant davranışlarını müşahidə edirik. Dəfələrlə ermənilər qatil kimi təsbit olunsalar da, onlara ya cəza verilmir, ya əməlləri görməzdən gəlinir, ya da kazak-erməni işbirliyi ortaya çıxır"* [3, s.47]. Baş verən hadisələr zamanı erməni daşnakları türk-müsəlman əhaliyə həm də mənəvi zərbələr endirmiş, əllərinə keçən əlyazma kitablarını və **Quran** kitabını amansızcasına yandırmışlar.

"1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərinin "Bağırqan dağı" adlı hekayəsində ermənilərin necə vəhşi cəllad olduqları daha kəskin şəkildə öz əksini tapmışdır. Şuşa qalasının şərq tərəfində Bağırqan dağı deyilən yerdə uca qayada Avan Koxa adlı bir erməni yaşayırmış. Onun müsəlmanlara qarşı qəddarlığını Nəvvab əsərində olduğu kimi real faktlar əsasında diqqətə çatdıraraq yazırdı: *"Avan Koxa öz təbəələrinə buyurmuşdu ki, harda əllərinə müsəlman düşsə, tutub onun hüzuruna gətirsinlər. Avan Koxanın əmrilə tutulmuş müsəlmanı çılpaqlayıb üzü üstə yerə yıxardılar. Sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla boynundan qom ətinəcən iki tərəfən xətt çəkdirər və dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edib budağı buraxardılar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda o yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və onun bağırtısı o dağa düşərdi. Bu əhvalatı görənin və eşidənin də bağrı qan olardı"* [4, s.11].

Qeyd edək ki, 1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı qətliamlar, qırğınlar törətməsi həmin illərdə kütləvi şəkildə bir çox şəhər və regionlarda baş verirdi. Lakin Şuşa şəhəri və Qarabağın bir çox kəndlərində münaqi-

şələr artıq 1903-1904-cü illərdən kiçik hadisələrlə başlamışdı. Mir Möhsün Nəvvab əsərində hələ 1903-cü ildə baş verən real hadisələri, münaqişələri hekayətlər formasında yazırdı. Müəllif kəndlərdə yaşayan azsaylı ermənilər tərəfindən əhalinin başına hiyləgərliklə gətirilən oyunlardan, üzdə dost qismində görsənib, əslində isə hər fürsətdə müsəlman əhaliyə qarşı acımasız qəddarlığını diqqətə çatdırırdı. Özünü biçarə kimi göstərən erməniyə yemək verən azərbaycanlı iki cavan qardaşların yuxuya gedən kimi özündən savayı, qabaqcadan daha iki erməni gətirib gizlədən hiyləgər düşmən haqqında hekayəni müəllif belə təqdim edir: *"Elə ki cavanlar yatdı, ermənilərin hər üçü durub əllərində balta yavaş-yavaş gəlib, o biçarələrin başlarını iki parə etdilər. Cavanlar bircə dəfə çağırıb canlarını tapşırdılar. Sonra məlun ermənilər o biçarələri üryan edib, paltarlarını və ciblərini soyub, bədənlərini kömür quyusuna atıb yandırdılar"* [4, s.13].

M.M.Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərinin "1904-cü ildə Bakıda ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişə" başlıqlı hekayəsində erməni millətinin xarakterini aşkar şəkildə yazırdı: *"Əvvəla bunu bilmək lazımdır ki, İrəvan şəhərinin erməniləri çox kinli, ədavətli, təkəbbürlü, xudpəsənd və xəmirləri fitnə-fəsad ilə yoğrulmuş adamlardır. Hansı vilayətdə ki bunlar tapılır, mütləq orda bir ədavət və iğtişaş olacaq. Qafqaz vilayətlərində nə qədər iğtişaş və münaqişələr baş verirdisə, onların birinci səbəbkarı İrəvan erməniləri olurdu"* [4, s.15-16]. Bununla müəllif erməni millətinin əsl xislətini diqqətə çəkib 1904-cü ildə Bakı şəhərində onların türk-müsəlman əhaliyə qarşı pərakəndə şəkildə hər fürsət düşdükcə iğtişaşlar və qətllər törətdiyini real hadisələr əsasında diqqətə çatdırırdı.

Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsərinin "Lalayevin Bakı şəhərində törətdiyi əhvalat"ı bölümündə həmin dövrlərdə Bakı əhalisi arasında böyük şöhrət qazanmış Ağakərim adlı bir nəfər mərd və igid oğlanın Bakı küçələrində azərbaycanlıların həyatına qəsd edən erməni quldurlarını məhv etməsindən bəhs edilir. Döyüşlər zamanı Ağakərim öz dəstəsi ilə Lalayevin evi yerləşən küçəyə çatır. Onlar Lalayevin evini gülləbaran edir və evin içinə daxil olurlar. Lalayevin evindəki erməni quldurları qaçmaq istəyərkən Ağakərimin dəstəsi onları bir-bir qətlə yetirir və evdə gizlənənləri də cəzalandırırlar. Bundan sonra Ağakərim bir neçə nəfərlə Lalayevin otağına daxil olur. Bu zaman onun qarşısında agac yarpağı kimi tir-tir əsən Lalayev Ağakərimdən onu bağışlaması üçün yalvarır və bunun qarşılığında ona pul təklif edir. Bunun qarşılığında Ağakərimin cavabı belə olur: "*Bu millət davasıdır. Milləti müdafiə etməkdən ötrü biz can qoymuşuq və bu məqsədlə də buraya gəlmişik. Millət yolunda biz pula satılanlardan deyilik"* [4, s.18]. Bu vaxtı Lalayevin arvadı gəlib özünü ərinin üstünə atır və ağlaya-ağlaya Ağakərimə nə qədər pul lazımdırsa verim, amma yoldaşımı öldürməyin deyə yalvarır. Ağakərimin cavabı: "*...bizə pul lazım deyil. Sənin bu kişin gərək öldürülə. Sənin kişin çox qürrələnib erməni məclislərində deyirmiş ki, müsəlmanlar mənim yanımda bir milçəkdir. Yarım milyon pul qoyub, onların hamısını məhv edərəm"* [4, s.18] deyir və Lalayevi qətlə yetirir.

Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsərinin "1905-ci il Şuşa şəhərinin əhvalatı" bölümündə baş verən hadisələr barədə əhvalatda qeyd edir ki, çərşənbə axşamı günortadan sonra 16 avqust 1905-ci ildə ermənilər Şuşa şəhərində yaşayan azərbaycanlıların üzərinə hücuma başladılar. Erməni dəstələri şəhərə üç istiqamətdə hücuma keçiblər. Qalan ermənilər isə səngərlərə dolublar. Hadisələr zamanı Köçərli məhəlləsində qədim bir tayfaya mənsub, gözəl ev-eşiyi olan doxsan yaşlı Abbas bəy adlı bir nəfər yaşayırmış. İki erməni Abbas bəy evdən çıxanda ona deyiblər ki, sən bizim qonşumuzsan, səninlə bizim işimiz yoxdur. Sonra isə Abbas bəyi sözə tutublar və güllələyiblər. "*...Ermənilər bir neçə güllə də Abbas bəyin yeganə oğluna və qardaşı oğluna vurub hər üçünü öldürdülər. Bundan sonra onlar evə benzin və neft töküb odladılar. Vurulanların da meyidlərinə od vurdular. Bundan sonra ermənilər üç gün idi ki, gəlin gətirmiş Nuşirəvan adlı bir yazığı da güllə ilə vurub öldürdülər..."* [4, s.31]. Əhvalatdan məlum olur ki, onlar nəinki gəlinin cehizinə, hətta meyidlərə də neft töküb yandırıblar. *"...Beləliklə, onlar on beşə qədər evi mal-dövləti ilə yandırıb külə döndərdilər. Ev sahibləri övrət-uşaqla çıxıb*

*qaçsalar da, onlardan iki-üç nəfəri şəhid oldu..."* [4, s.31].

Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərindəki hadisələrlə, əhvalatlarla tanış olarkən məlum olur ki, həmin illərdə ermənilər öz qarşılarına qoyduqları məqsədə çatmaq üçün durmadan səngərlər tikib, ciddi tədarüklər görüblər. Onlar planlı şəkildə azərbaycanlıların üzərinə hücuma keçmək üçün ciddi hazırlaşıblar. Hətta Mir Möhsün Nəvvabın evi də Şuşada erməni məhəlləsinə qonşu olduğuna görə, qarşıdan gələn təhlükəni hiss edibmiş və şəhərin bir neçə nüfuzlu şəxsləri ona evini dəyişməyi məsləhət görüblər. Lakin o cəsarətini toplayıb və evindən köçmək fikrindən yayınıb.

Mir Möhsün Nəvvab bütün baş verən münaqişələrə, qətliamlara baxmayaraq azərbaycanlıların qələbə qazanacağına ümidini qətiyyən itirməyib və o, elə hadisələrin ən qızğın vaxtında aşağıdakı beyti yazıb və "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərinə daxil etmişdir.

Qələbə yaxın günlərdə sizinlədir.

Bütün düşmənlər sizin ayağınızın altındadır [4, s.31].

Nəvvab real hadisələr əsasında qələmə aldığı əsər vasitəsilə baş vermiş münaqişə və soyqırımlara rəğmən "Erməni tayfasına nəsihətlər" bölümündə onlara həddini bildirərək yazırdı: *"Əgər məqsədiniz padşahlıq və kral olmaqdırsa, sizin bu təbiətinizlə və insafsızlığınızla heyhat ağla sığan şey deyil. Ağıllı və kamallı insanın sizin haqqınızda düşüncəsi belədir ki, belə səfeh hərəkətlərlə sizin tayfaya nəinki padşahlıq, heç koxalıq və kəndxudalıq da yaraşmır. Bu dəfələrlə mötəbər dəlillərlə sübut olunmuşdur* [4, s.55]*"*.

Bir ağacın ki, meyvəsi zülm ola,

Bir gün onun gövdəsinə balta çalacaqlar [4, s.56].

## **Nəticə** / ***Conclusion***

Ümumiyyətlə, Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsəri maarifləndirmə xarakteri daşıyan tarixi-publisistik əsərdir. Müəllif əsər vasitəsilə həm milli, dini ayrıseçkiliyə etirazını bildirir, həm də milli təəssübkeş ziyalı kimi gələcək nəsilləri erməni şovinizminə və onlara himayədarlıq edən Çar imperiyasının hiyləgər xarakterinə qarşı ayıq-sayıq olmağa çağırırdı. Filologiya elmləri doktoru, dosent Aytən Hacıyeva yazır ki, *"M.M.Nəvvab şahidi olduğu erməni-müsəlman davasının tarixi həqiqətlərini "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərində qələmə alıb gələcək nəsillərə ibrət qaynağı kimi faydalanmağı tapşırmışdır"* [1, s.161].

## **Ədəbiyyat** / ***References***


1. Hacıyeva, A. Mir Möhsün Nəvvabın ədəbi-bədii irsi / – Bakı: Nurlan, – 2004. – 211 s.
2. Kərimova, S.A. Mir Möhsün Nəvvabın (1833-1919) yaradıcılığında soyqırım məsələsi // Baku State University: Azerbaijani Oriental Studies in the Context of East-West Scientific-Cultural & Socio-Political Dialogue. International conference. Dedicated to the 100th anniversary of the establishment of the Faculty of Oriental Studies of Baku State University. – Baku: – 14-15 december, – 2022, – s.297-298
3. Məmmədova-Kekeç, E. Erməni-müsəlman davası: tarixdə və dramaturgiyada // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşünaslığı, – 2022. – №1, – s.44-60
4. Nəvvab, M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası / – Bakı: Azərbaycan nəşriyyatı, – 1993. – 128 s.

## Реалистичное изображение событий геноцида в произведении Мир Мохсуна Навваба "Армяно-мусульманский конфликт 1905-1906 годов"

**Самира Керимова**

**Резюме:** В статье под названием "Реалистичное изображение событий геноцида в произведении Мир Мохсуна Навваба "Армяно-мусульманский конфликт 1905-1906 годов" мы узнаем о конфликте и геноциде, совершенных армянами против турецко-мусульманского населения в начале XX века, через истории и эпизоды, основанные на реальных событиях.

В статье мы видим истинную природу армянской нации, совершившей геноцид против турецко-мусульманского населения в 1905-1906 годах, регионы Азербайджана, где в основном происходили эти события, а также подход Мир Мохсуна Навваба к этим событиям и его позицию как патриотически настроенного интеллектуала.

Работа Мир Мохсуна Навваба "Армяно-мусульманский конфликт 1905-1906 годов" это не только образовательное произведение, но и пример протеста против национальной и религиозной дискриминации, а также призыв к будущим поколениям, как к национально фанатичным интеллектуалам, быть бдительными в отношении армянского шовинизма и коварной природы царской империи, которая их покровительствовала.

**Ключевые слова:** геноцид, турецко-мусульманский, эпизод, национальный конфликт, империя, историческое событие